

# Ermənistanda klanlararası savaş başlayıb

*Ermənistanda yaranan daxili qarşıdurma getdikcə dərinləşməkdədir. Bir müddət əvvəl hakimiyyətə gələn Nikol Paşinyan xalqa verdiyi vədləri yerinə yetirə bilmədiyindən daxildə narazılıqlar daha da artır. Üstəlik Koçaryan və Sarkisyanın rəhbərlik etdiyi Qarabağ klanının da Paşinyana qarşı güc nümayişinə başlaması vəziyyəti daha da kritikləşdirib. Artıq Ermənistan tərəfi ölkədə baş verənləri gizlədə bilmir.*

Səh.13

24 səhifə
Həftəlik qəzet

# UNIKAL

№30 (1969) 8 iyun 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# "Azərsun Holding" prezidentinin gileyi

## Abdulbari Gozal dövlətdən dəstək alır, qanundan şikayətçidir

*Ölkədə investorların fəaliyyəti üçün hər bir şərait yaradıldığı halda, "Azərsun Holding" prezidenti niyə gileylənir? Bu həftə Bakıda keçirilən "Dövlət sahibkarın ən yaxşı tərəfdaşıdır" adlı konfransda çıxışı zamanı "Azərsun Holding"in prezidenti Abdulbari Gozal diqqətçəkən fikirlər səsləndirib. "Biz dövlətə ticarətlə məşğul olmamasını və sahibkarların yolunu açmasını istəyirik" deyən Gozalın sözlərinə görə, dövlət heç vaxt iqtisadiyyatda uğurlu ola bilməz: "Bu gün bizim üçün ən vacibi ölkəyə xarici sərmayənin gəlməsidir. Bunun üçün də qanunların düzgün işləməsi lazımdır. Şükür Allaha, Prezident bu məsələni nəzarətə götürüb. Biz ona inanırıq. Əgər ölkə başçısı bir şeyi diqqətdə saxladısa, ən yaxşısını görəcək. Əgər qanunlar düzgün işləyərsə, sahibkarlar üçün yaxşı olar".*

Səh.5

Səh.7



# Qarabağ danışıqlarında vasitəçilərdən imtina oluna bilər

## "Müxalifət yatır, birdən ortaya yaxşı iş çıxanda deyir ki, burda bizim iştirakımız var"



*Ölkədə həyata keçirilən islahatlar,baş verən dəyişikliklər cəmiyyət tərəfində də müsbət qarşılanmaqdadır. Təbii ki, müəyyən çatışmazlıqlar var, amma nəzərdə tutlan tədbirlər problemlərin həll olunacağına inam yaradır. Milli Məclisin deputatı Nizami Cəfərov "Unikal" qəzetinə müsahibəsində söhbətə elə bu mövzudan başladı.*

Səh.4

## "Azərbaycan işğal altındakı torpaqlarında hər hansı bir qurumun yaranmasına yol verməyəcək"



*Fransa inzibati məhkəməsi bu ölkənin Arnuvill şəhəri (Val Duaz departamenti, Parisin ətrafı) ilə Azərbaycanın işğal altında olan Xocavənd rayonu arasında imzalanmış "Dostluq haqqında xartiya"nı ləğv edib. Bu qərar Azərbaycanın beynəlxalq arenada mövqeyini möhkəmləndirilməsində çox əhəmiyyətlidir.*

Səh.8

## AZAL-ın qiymət siyasəti ölkəyə turist axınını zəiflədir



*"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) təyyarə biletlərinin baha olması ətrafında müzakirələr yenidən qızışıb. Buna səbəb isə son zamanlar ölkəmizə səfər edən turistlərin Gürcüstanın Tbilisi və Kutaisi şəhərlərinə təyyarə ilə gələrək, oradan da Bakıya avtobusla gəlməsi hallarının çoxalmasıdır.*

Səh.12